**Bir neçə dəqiqə, hətta saniyə ərzində dəfələrlə sarsıntılar yaşamaq... Bütün varlığının qorxu və çaşqınlıq içində qalması... 2023-cü il fevralın 6-da Türkiyənin Kahramanmaraş vilayətində baş verən zəlzələ bölgədə misli görünməmiş dağıntılara səbəb oldu. Yeraltı təkanlar Hatay, Adıyaman, Malatya, Qaziantep və digər yaxın şəhərlərdə ciddi təsir göstərdi. 6 fevral səhəri milyonlarla insan üçün adi bir gün kimi başlamadı, saniyələr ərzində həyatları tamamilə dəyişdi. Binalar çökdü, ailələr dağıldı, küçələrdə çarəsiz insanların fəryadı eşidildi. Minlərlə insan həyatını itirdi, yüz minlərlə insan yaralandı və evsiz qaldı. İlk təkanın şiddəti ilə yerin altından gələn vahiməli səs insanları qorxuya saldı. Hər təkanla yerin altından gələn bu fəlakət həyatın nə qədər kövrək olduğunu, hər an hər şeyin dəyişə biləcəyini bir daha xatırlatdı.**



# Bir gecədə on minlərlə həyatın məhv olduğu o fəlakət...





6 fevral 2023-cü ildə meydana gələn 7,7 bal gücündəki zəlzələ Türkiyənin 11 şəhərini dağıntıya uğratdı. Bu böyük fəlakət 900 ildən bəri gözlənilən və mütəxəssislərin diqqətini çəkən bir təbii hadisə idi. Sonuncu belə zəlzələ 1114-cü ildə baş vermişdi. Təəssüf ki, bu zəlzələ yalnız başlanğıc oldu. İlk təkandan 9 saat sonra 7,6 bal gücündə ikinci bir zəlzələ baş verdi. Bu iki böyük təkan arasında 6,7 bal gücündə başqa bir zəlzələ və bir sıra afterşoklar qeydə alındı. Fevralın 20-də isə Hatayda 6,5 bal gücündə başqa bir zəlzələ hiss olundu. Kahramanmaraş və Hatay başda olmaqla, bölgədəki daimi zəlzələ dalğaları böyük faciələrə və dərin yaralara səbəb oldu.

Bu fəlakət nəticəsində 53537 nəfər həyatını itirdi, 107213 nəfər isə yaralandı. Zəlzələ ümumilikdə 120000 kvadratkilometrlik ərazini dağıdaraq insanları ağır duruma gətirdi. Türkiyə zəlzələnin ardından dərhal 4-cü səviyyə xəbərdarlıq etdi və 93 ölkədən axtarış-xilasetmə qrupları bölgəyə gəldi. Təbii fəlakət bölgəsinə 650 min nəfərlik işçi qüvvəsi cəlb olundu. Onlardan 11 min 488-i beynəlxalq olmaqla 35 min 250-si axtarış-xilasetmə, 142 mini isə təhlükəsizlik işçisi idi. Bütün bu işlərin aparılması üçün 20 min avtomobil və tikinti texnikası, 141 helikopter, 182 təyyarə və 23 gəmi ayrıldı. İlkin mərhələdə bölgəyə bir milyon çadır çatdırıldı ki, bu da təxminən 2,5 milyon zərərçəkənin müvəqqəti sığınmasına imkan yaratdı. Bölgədən 3 milyon 549 min nəfər təxliyə edildi. Bu dövrdə "Türk Hava Yolları" 13 min 701 uçuşla 2 milyondan çox sərnişin daşıdı, zəlzələ bölgəsinə 32 min 770 ton yardım materialı çatdırdı. Təbii fəlakətdən zərərçəkən vətəndaşlara, həmçinin 14 milyard 453 milyon lirə məbləğində kirayə dəstəyi göstərildi. Dağılmış 38901 binada axtarış işləri aparıldı, sağ qalan insanların olduğu 26000-dən çox binada isə xilasetmə əməliyyatları həyata keçirildi.

Bu böyük faciə həm ölkə daxilində, həm də beynəlxalq aləmdə əks-səda doğurdu. Türkiyədə baş verən zəlzələ Azərbaycan üçün də dərindən hiss olunan bir kədər və ağrıya səbəb oldu. Qardaş ölkəyə göndərdiyimiz yardımlar qəlbimizə bir az da olsa rahatlıq gətirdi. Zəlzələ bölgəsindən alınan kiçik bir xoş xəbər, uğurlu xilasetmə və yardım əməliyyatları, acılarımızı bir qədər də olsa, yüngülləşdirdi. Zəlzələnin dəhşətli təsirindən sağ çıxanların yaşadıqları isə hələ də təsəvvür edilməsi çətin olan bir vəziyyət idi. Zəlzələ səhər tezdən baş verdiyindən, az bir müddətdə hökumət qüvvələri səfərbər oldu, icra strukturları və bələdiyyələr insanlara yardım etməyə başladılar. Fəlakətin miqyası o qədər böyük idi ki, insanlar özləri yaşadıqlarına və sağ qaldıqlarına şükür edirdilər. Türkiyə hökuməti və beynəlxalq təşkilatlar dərhal yardım əməliyyatlarına başladılar. Azərbaycan daxil olmaqla bir çox ölkə xilasetmə qrupları göndərdi, humanitar yardım kampaniyaları təşkil olundu. BMT, Avropa Birliyi və digər qurumlar da fəlakət bölgəsinə dəstək göstərdi. 6 fevral zəlzələsi təkcə Türkiyə üçün deyil, bütün region üçün sarsıdıcı hadisə oldu. Bu təbii fəlakət binaların dayanıqlığı, fövqəladə hallara hazırlıq və dövlətlərin böhran vəziyyətlərində nə dərəcədə effektiv olduğunu bir daha gündəmə gətirdi. Seysmoloqların məlumatına əsasən, episentri Kahramanmaraş olan bu zəlzələ Anadolu Fayı üzərindəki tektonik hərəkətlərin nəticəsi idi. Hökumətin və beynəlxalq təşkilatların reaksiyası göstərdi ki, humanitar yardımların operativliyi və böhran idarəetməsi mühüm faktorlardır. Bundan əlavə, zəlzələdən sonra şəhərlərin bərpası üçün genişmiqyaslı planların hazırlanması və icrası həyata keçirilir.

Bir an içində evlərini, yaxınlarını itirən insanlar üçün bu, həyatlarının ən böyük sınağı oldu. Ancaq bütün bu dağıntılar içində bir ümid işığı da var idi. Xilasetmə qruplarının gecə-gündüz fədakarlıqla çalışması, qardaş ölkələrdən gələn dəstək, dünyanın hər yerindən edilən dualar və yardımlar...

Azərbaycan xalqı hər zaman olduğu kimi, bu çətin günlərdə də öz qardaşlarına yardım etmək üçün əlindən gələn hər şeyi əsirgəmədi. Türkiyədəki zəlzələ nəticəsində yaranan fəlakəti dərindən hiss edən ölkəmiz müxtəlif yardım kampaniyaları təşkil edərək Türkiyənin müxtəlif bölgələrinə humanitar yardım göndərdi. Hökumət və xalq birgə əməkdaşlıq edərək "bir millət, iki dövlət" anlayışını ən yüksək şəkildə nümayiş etdirdilər. Zəlzələdən sonra həm dövlət, həm də xalq qardaş ölkənin yaralarını sarmaq üçün bütün resurslarını səfərbər etdi. Bu yardım fəaliyyətləri fiziki yardımla məhdud deyildi, insanlara mənəvi dəstək olmaq, onlara yalnız olmadıqlarını hiss etdirmək məqsədi daşıyırdı.

Bu fəlakət bizə birliyin və insanlığın gücünü göstərdi. Həyatını itirənlər heç vaxt unudulmayacaq, amma bu hadisə bizə gələcəkdə daha hazırlıqlı olmağın vacibliyini də öyrətdi. Türkiyə dünyanın ən aktiv zəlzələ bölgələrindən biridir. Ancaq Türkiyə güclü dövlətdir və bu çətinliklərə də qalib gələcək. Azərbaycan isə öz dəstəyi ilə daim qardaş ölkənin yanında olacaq.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**